# Xalq–Ordu–Lider – qələbə qazandıran birlik





***Bütün zamanlar üçün liderlərin şəxsiyyəti xalqın, dövlətin gələcəyi baxımından çox mühüm amil olmuşdur. Yaxın tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrin liderləri öz xalqlarını ya tərəqqiyə, ya da faciəyə aparmışlar. Azərbaycanın tarixində də belə faktlara az rast gəlmirik. Elə ötən əsrin 90-cı illərinin əvvəllərində yaşadıqlarımızı xatırlamaq yetər. Müstəqilliyini yenicə bərpa etmiş xalqımız bir tərəfdən ölkənin ərazi bütövlüyünü müdafiə edir, digər tərəfdən isə daxili sabitsizlikdən əziyyət çəkirdi. Yalnız ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı xalqımızın yeni tarixi mərhələyə qədəm qoymasına və ölkədə sabitliyin əldə olunmasına şərait yaratdı. Mahir diplomat və böyük siyasi məktəbin yetirməsi olan cənab İlham Əliyevin Prezident seçilməsindən sonra isə Azərbaycanın hərtərəfli yüksəlişi özünün məntiqi nəticəsilə yekunlaşdı. Xalq qarmaqarışıq illərdə itirdiklərini müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, əsgərlərimizin şücaəti sayəsində işğalçılardan geri almağa müvəffəq oldu.***

Müasir tariximiz xalqımızın müstəqil, müdrik seçiminin bəhrəsidir. Bu gün hamımız qüdrətli və qalib dövlətin vətəndaşlarıyıq. Belə bir hissi, sevinci və qüruru xalqımıza bəxş edən, Azərbaycanı qalib ölkəyə çevirən Prezident İlham Əliyevdir. Heç kimə sir deyil ki, müstəqilliyinin ilk illərində Azərbaycan böyük çətinliklərlə üzləşmişdi. Belə ki, ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın Qarabağ bölgəsində yaranmış erməni separatizmi 90-cı illərin əvvəllərində daha da aqressivləşmiş, Ermənistanın işğalı nəticəsində ölkə ərazisinin 20 faizi işğal olunmuş, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdi. Bundan əlavə, keçmiş SSRİ-nin dağılması ilə Azərbaycanın ənənəvi iqtisadi-ticarət əlaqələrinə son qoyulmuş, maliyyə-iqtisadi və siyasi böhran daha da dərinləşmişdi. Yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra ölkə tədricən bu böhrandan çıxdı, ictimai-siyasi sabitlik, milli birlik və vətəndaş həmrəyliyi yaradıldı, cəmiyyətin bütün sahələrində yenidənqurma prosesi başlandı. Ümummilli liderin xeyir-duası ilə ölkə Prezidenti seçilən cənab İlham Əliyev Azərbaycan xalqının ümidlərini və ona göstərilən yüksək etimadı doğruldaraq, dahi siyasi xadim Heydər Əliyevin vəsiyyətlərini layiqincə yerinə yetirdi. O, ümummilli liderin əsasını qoyduğu iqtisadi, siyasi, hüquqi, mədəni sahələrdə, ordu quruculuğunda əsaslı islahatları uğurla davam etdirdi.

Prezident İlham Əliyevin ali dövlət vəzifəsində çalışdığı ilk günlərdən nümayiş etdirdiyi yüksək idarəçilik bacarığı, milli maraqlara əsaslanan qətiyyətli daxili və xarici siyasəti, seçkiqabağı təşviqat dövründə səslənən “Mən hər bir azərbaycanlının Prezidenti olacağam!” vədinə sadiqlik, qısa müddət ərzində ona xalq arasında böyük şöhrət, sonsuz və güclü inam qazandırdı. Məhz bu səbəbdəndir ki, 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində cənab İlham Əliyev Azərbaycan xalqının böyük dəstəyi ilə yenidən inamlı qələbə əldə etdi. Şübhəsiz, Prezident İlham Əliyev ölkə və cəmiyyət həyatının müxtəlif sahələrində saysız-hesabsız yeniliklər etmişdir. Onlar siyasətdə, iqtisadiyyatda, ordu quruculuğunda, diplomatiyada, sosial sahədə, elmdə, təhsildə, mədəniyyətdə, səhiyyədə, idmanda, ailə dəyərlərinin qorunmasında, yeni infrastrukturun yaranmasında, yolların tikilməsində, bir sözlə, bütün sahələrdə özünü büruzə vermişdir və bu da ölkəmizin inkişafına, Azərbaycanın çiçəklənən, qüdrətli, nüfuzlu dövlətə çevrilməsinə səbəb olmuşdur.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Prezident İlham Əliyev bütün dünyaya əyani şəkildə nümayiş etdirdi ki, Azərbaycan xalqı fədakardır, sülhsevərdir, eyni zamanda, ədalətli iş uğrunda istənilən formada mübarizə aparmağa, qalib gəlməyə qadirdir. Dövlət başçımızın qətiyyəti və cəsarəti, ən kritik vəziyyətlərdə səbr və dözüm nümayiş etdirmək bacarığı, yüksək intellekt səviyyəsi, beynəlxalq hüququn bütün təfərrüatlarını bilməsi 44 günlük Vətən savaşımızda erməni işğalçıları üzərində qələbə qazanmağımızda misilsiz rol oynadı. Prezident İlham Əliyevin hücum diplomatiyası xaricdəki erməni lobbisinin qüdrətini sarsıtdı, onun əsl komandanlıq qabiliyyəti ermənilərin işğal etdikləri Qarabağda qurduqları “keçilməz” adlandırılan müdafiə istehkamları haqqında mifi dağıtdı. Cənab İlham Əliyev Ali Baş Komandan kimi Azərbaycanda dünyanın 50 ən güclü ordusundan birini yaratdı və bu ordu öz gücünü dəfələrlə düşmənə nümayiş etdirərək, işğalçıların təxribatlarına qarşı vuruşdu.

Nəhayət, sentyabrın 27-də hərbi təxribata qarşı başlanmış əks-hücum əməliyyatı sayəsində Prezident İlham Əliyev vədi yerinə yetirdi. Sözünün və imzasının sahibi kimi Ali Baş Komandan 2018-ci ildəki andiçmə mərasimində demişdi ki, Azərbaycan xalqı işğal faktı ilə heç vaxt barışmayacaq, torpaqlarımız düşmən tapdağından azad olunacaq. Budur, indi hər bir azərbaycanlı qalib xalqın övladı kimi alnıaçıq, başıuca gəzir. Qarabağı işğaldan azad edən Ali Baş Komandan Prezident İlham Əliyev taleyüklü missiyasını yerinə yetirdi. Vətən müharibəsində düşmənə tarixin ən ağır zərbəsi vuruldu. Müharibə zamanı Azərbaycana böyük təzyiqlər edildi. Lakin güclü siyasi iradə nümayiş etdirən cənab İlham Əliyev bütün təzyiqlərə mərdliklə sinə gərdi, prinsipial mövqeyindən geri çəkilmədi. Azərbaycan Ordusu qalib Ali Baş Komandanın rəhbərliyi altında Ermənistanı diz çökdürdü və işğalçı 44 gün ərzində təslim oldu.

Beləliklə, Azərbaycan öz tarixinin son 200 ili ərzində müharibədən ərazi itkiləri ilə deyil, ərazi bütövlüyünün bərpası ilə çıxdı və bu şanlı qələbədən sonra regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Böyük Vətən müharibəsindəki qələbəmiz cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə reallaşdırdığı güclü dövlət və güclü ordu quruculuğunun təbii nəticəsi idi. Azərbaycan tarixi qələbəsi ilə dünyanın inkişaf etmiş ölkələrindən biri olduğunu bir daha təsdiqlədi. Bu qələbə ilə adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdırmış Ali Baş Komandana xalqın sevgisi daha da artdı. Xalq−ordu−lider birliyi Azərbaycanın qarşısında dayanmış strateji vəzifəni yerinə yetirdi, torpaqlarımızı azad etdi.

**Səbuhi MƏMMƏDOV, “Xalq qəzeti”**